Kim Allahdan başqasına dua edərsə və bunun üzərində ölərsə cəhənnəmə girər

Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bir söz dedi, mən başqa bir söz dedim. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Kim Allahdan başqasına dua edərsə və bunun üzərində ölərsə cəhənnəmə girər". Mən dedim: "Allahdan başqasına dua etmədən ölən, cənnətə daxil olar."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, Uca Allahdan başqasına dua etmək, Ondan qeyrisindən yardım diləmək, Allaha xas olan hər bir növ ibadəti başqasına yönəldərsə və bu üzrə ölərsə, cəhənnəm əhlindən olar. İbn Məsud (Allah ondan razı olsun) əlavə etdi ki, kim Allaha şərik qoşmadan ölərsə, son gedəcəyi yer cənnət olar.

http://www.sunnah.global/hadeeth/az/show/3419